**Z.Z.MƏMMƏDOVA**
*e-mail: zahidammmdova@gmail.com*

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., H.Əliyev pr., 159)

# ŞAGİRDLƏRİN PEDAQOJİ PEŞƏYÖNÜMÜNDƏ MƏKTƏBLƏ AİLƏNİN BİRGƏ FƏALİYYƏTİ

***Açar sözlər:*** *peşəyönümü, birgə pedaqoji fəaliyyət, müəllimlik peşəsi, ailə tərbiyəsi, tərbiyədə müəllimin rolu.*

***Ключевые слова:*** *выбор профессии, совместная педагогическая деятельность, профессия учителя, семейное воспитание, роль учителя в воспитании.*

***Key words:*** *oriented on the profession, the activity of the pedagogic connection, profession of the teachers, the teachers role in the education.*

Məktəblini ata-anasından yaxşı tanıyan, ona yaxşı bələd olan yoxdur. Uşağın gələcək taleyi də heç kəsi valideynlər qədər maraqlandırmır. Buna görə də müəllimin gördüyü hər bir iş, o cümlədən məktəbin apardığı peşəyönümü iş də valideyn tərəfindən müdafiə olunmalıdır.

Aparılan tədqiqatdan belə bir nəticə hasil olur ki, valideynlərin əksəriyyəti müəllimliyi qızlar üçün münasib peşə sayırlar. Məktəblilərin müəllimlik peşəsinə münasibəti əslində valideynlərin həmin peşəyə münasibətini əks etdirir. Ata-analar kiçik yaşlarından qızları həmin peşələrə daha çox rəğbətləndirirlər. Müasir ailələrdə tərbiyə baxımından yeni şərait yaranmışdır. Sosioloqlar peşəseçmə sahəsində anaların rolunun artmasını xüsusi qeyd edirlər. Bunu hər şeydən əvvəl qadınların təhsil səviyyəsinin artması ilə izah edirlər. Son tədqiqatlar göstərir ki, qadınların təhsil səviyyəsi artdıqca ailədə uşaqların miqdarı azalır, başqa sözlə azuşaqlı ailələr formalaşır. Onların içərisində isə təkuşaqlı, eləcə də ikiuşaqlı ailələr xüsusi yer tutur. Aparılan müşahidələr göstərir ki, məhz belə ailələrdə uşaqların peşəyönümü işində ciddi nöqsanlar daha çox meydana çıxır. Valideynlər uşaqların hansı sahə ilə maraqlanmasına əslində əhəmiyyət vermirlər. “Uşağın gələcəyini” özləri vaxtında həll etmək istəyirlər. Onu, bilavasitə ananın birtərəfli peşə modeli əsasında tərbiyə edirlər.

Vaxtilə müəllimlik nüfuzlu peşələr arasında xüsusi yer tuturdu. Mahiyyət etibarilə onu kişi peşəsi hesab edirdilər. İndi isə xüsusilə şəhər yerində müəllimliyi qız-qadın peşəsi kimi səciyyələndirən təsəvvürlər geniş yayılmışdır. Bu təsəvvürlərin bərqərar olmasında analar xüsusilə fərqlənirlər.

Müşahidələr göstərir ki, peşəyönümü işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün məktəblə ailənin birgə fəaliyyətini səmərəli şəkildə təşkil etmək lazımdır. Uşaqların peşəseçmə işi ilə bağlı valideynlərlə düzgün istiqamət vermək məktəbin qarşısında duran mühüm vəzifə ilmalıdır. Çünki valideynlər öz uşaqlarının xarakterinə, anatomik-fizioloji xüsusiyyətlərinə hər kəsdən daha çox bələddir və onların gündəlik davranışını izləmək imkanına malikdir. Tutaq ki, ailənin qız övladı müəllim olmaq istəyir. Lakin valideynlər bilirlər ki, övladları əsəbidir, sabit xarakterə malik deyil, son dərəcə həssasdır, üstəlik nitqi də qüsurludur, məktəbdə işləmək onun üçün çox çətin olar. Ona görə də onu başqa əmək sahəsinə istiqamətləndirmək daha məqsədəuyğun olar.

Məlumat xidməti gənclərin peşəyönümü sistemində zəif həlqədir. Peşələr haqqında şagirdlərin məlumatları lazımı səviyyədə deyildir. Bu işdə məktəb və valideynlər öz imkanlarından kordinə edilmiş formada istifadə etməlidirlər. Bu baxımdan məktəbin valideynlərlə apardığı işin başlıca istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

1. Valideynlərin peşəyönümü üzrə pedaqoji təbliğatla geniş əhatə olunması;
2. Şagirdlərlə aparılan pedaqoji peşəyönümü işinə valideynlərin maksimum dərəcədə cəlb olunması.

Valideynlərin sosial tərkibindən, həmçinin məktəbin imkanlarından asılı olaraq məktəbdə valideynlərlə iş planı tərtib olunması məqsədəuyğundur. Başlıca məqsəd - peşəyönümü işində valideynləri müəllimlərin, şagirdlərin ən yaxın köməkçisinə çevirmək, onları rayonun (şəhərin) mütəxəssislərə olan tələbatları ilə tanış etmək, konkret peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı məlumat verməkdir.

Sinif rəhbəri valideyn komitəsi vasitəsilə şagirdlərin peşəyönümü sahəsində məktəbə kömək etməyə imkanı və hazırlığı olan valideynlərin uçotunu və onlarla aparılacaq işin məzmununu müəyyənləşdirməlidir.

Valideynlərlə işin forma və metodları müxtəlifdir: qrup və fərdi şəkildə aparılan söhbətlər, valideyn yığıncaqları, əmək tərbiyəsi və peşəyönümünün müxtəlif məsələlərinə həsr edilmiş konfranslar, müəllimlərin şagirdlərin evlərinə gedişi, anket sorğuları, valideynləri pedaqoji peşəyönümü məsələləri ilə silahlandırmaq üçün təşkil edilən pedaqoji lektoriyalar və s.

Ümumiyyətlə, məktəbin valideynlərlə apardığı iş iki əsas formada fərdi və qrup şəklində təşkil edilə bilər.

Fərdi iş formalarına: valideynlərlə söhbətlər; hər hansı konkret halda valideynə kömək məqsədi güdən məsləhətlər; həkim məsləhəti aiddir.

Qrup şəklində aparılan iş formalarına: uşaqların əməyə cəlb edilməsi, onların maraq göstərdiyi sahələr üzrə məlumatlarının genişləndirilməsi, uşaqların fərdi xüsusiyyətlərinin öyrənilməsi, peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı valideynlərlə söhbətlər; valideyn konfransları; valideyn yığıncaqları; peşəyönümü məsələləri üzrə valideynlər üçün pedaqoji mühazirələr.

Valideynlərlə iş təkcə pedaqoji təbliğatla bitməyib, məktəbin pedaqoji peşəyönümü üzrə keçirdiyi tədbirlərə onların daha yaxından cəlb edilməsini tələb edir. Buraya: öz işinin ustası olan qabaqcıl valideynlərin (o cümlədən müəllim işləyən, valideynlərin) məktəbə dəvət edilməsi və onlarla görüşlərin təşkil edilməsi; valideyn komitəsi nümayəndələri ilə görüşlərin keçirilməsi və pedaqoji peşəyönümü məsələləri üzrə onlara məsləhətlərin verilməsi; məktəb peşəyönümü kabineti və ya guşəsinin tərtibinə valideynlərin cəlb edilməsi; sərgilərin, yığıncaqların təşkilinə valideynlərin cəlb edilməsi və s. aiddir.

Müəllimlərin valideynlərlə sıx əlaqəsi, onların peşəyönümü tədbirlərinə cəlb edilməsi bu işin məqsəd, vəzifə və formalarını başa düşməkdə və uşaqlara təsirin səmərəliliyini artırmaqda valideynlərə kömək edir.

Şagirdlərin pedaqoji peşəyönümü işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün məktəblə ailə arasındakı əlaqə formalarından səmərəli istifadə etmək lazımdır. Pedaqoji bilikləri valideyn ictimaiyyəti arasında yaymaq, pedaqoji peşəyə maraq göstərən şagirdlərin valideynləri ilə iş aparmaqda bu maraqları sabitləşdirmək və möhkəmləndirmək üçün həmin əlaqə formaları böyük əhəmiyyət kəsb edir. Məktəblə ailə arasındakı bütün mövcud əlaqə formaları valideynlər arasında pedaqoji təbliğatı gücləndirmək, uşaqların tərbiyəsi, peşəyönümü məsələlərində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq işində onlara kömək etmək məqsədi güdür. Məktəbin peşəyönümü üzrə valideynlərlə apardığı təcrübə mübadiləsinin əsas forması valideyn yığıncaqlarıdır. Valideyn yığıncağı ümumi tərbiyə, intizam və təlim müvəffəqiyyəti məsələlərinin həllində də əvəzedilməz kütləvi tədbirdir.

Beləliklə, sinif valideyn yığıncaqları ata-anaları pedaqoji cəhətdən savadlandırır və uşaqların tərbiyəsinin, peşəyönümünün konkret yol və vasitələrini onlara çatdırır.

**З.З.Мамедова**

**Совместная деятельность семьи со школой в организации работы выбора педагогической профессии школьников**

***Резюме***

В статье отражены особенности совместной деятельности учителя с родителями во время организации работы выбора педагогической профессии. Выявлено, что к педагогическим про-

фессиям более склонны девушки. Главной причиной этому то, что родители профессию учителя считают для девушек более приемлемым, чем для парней. Нехватка в школах учителей мужского пола является одним из факторов, отрицательно действующих на качество обучения и воспитания.

Статья может быть также интересна учителям высших учебных заведений и исследователям.

**Z.Z.Mammadova**

**The join activity of the family with school organization on the direction of the pedagogic vocation of the pupils**

***Summary***

During the pedagogic profession in the article was reflected the teachers activity to the parents and their feature. It was known that for the pedagogic vocation tendency most of all are girls and for the girls the teachings are most acceptable but for the boys consider that they are non-professional. One of the main factor influences in the training and education degree are the minority of men teachers in the schools.

The article can be interesting both secondary and school family teachers and also for the investigators.

*Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev*

*Redaksiyaya daxil olub: 02.06.2022*